Kaspi 2019.- 1-3 iyun.- S.22.



1 iyun 2019

WWW.KASPI.AZ



Arif Həsənli

## İLİN MÜBARƏK, USTAD!

*İ.Nəsimiyə*

Bu ili verdik sənə, ömrümüzün bir ilin,
Düşəri, uğuru var, hər günün hər bir ilin.
Sözün bəzəyi olsun hər ayın, hər fəsilin,
İlin mübarək, Ustad!

Xoş gəldin aramıza, addımla bizim ilə,
Adın zəfər gətirsin bu millətə, bu elə,
Əlifbamız yenidir, hakimik səlis dilə,
Dilin mübarək, Ustad!

Şəhid verdik, torpağı suvardı al qanımız,
Xiyabanlara köçdü adımız, ünvanımız,
Əlin çiynimizdəydi ağrıyanda canımız,
Əlin mübarək, Ustad!

Zəmin-Xarə axıtdı göz yaşların ahəstə,
Vətən, azadlıq dedi igidlər son nəfəsdə
Qərənfillər düzüldü axan qanların üstə,
Gülün mübarək, Ustad!

Hər vaxt səninləyik biz, hər an bizimləsən sən,
Məzarın yara alıb, Hələbdəki döyüşdən,
Narahat baxışların maya tutmur gülüşdən
Üzün mübarək, Ustad!

Çox dəngələr dəyişib, indi zaman başqadır,
Düşmən qana susadı, cılızlaşdı, huşdadır,
Söz, sözün dayağıdır, söz, məclisdə başdadır
Sözün mübarək, Ustad!

## USTAD NƏSİMİ

*(İ.Nəsiminin 650 illiyinə)*

Özünün yolu, səsi, odlu nəfəsi vardı,
Ucalığı, varlığı insanlarda tapardı,
İnsandan alilik, məslək umardı,
Ərkli şair idi, Ustad Nəsimi.

Ustadları var idi, kamil dərs almışdı o,
Düz yoldan dönməyən höcət-tərs olmuşdu o,
Ənəlhəq söyləyərək, ərşə ucalmışdı o,
Fərqli şair idi, Ustad Nəsimi.

Dünya çəllək idi, barıt yox idi hələ,
Qılınc əqidə kəsir, ümid çox idi hələ,
Daşqalaq dəbdə idi, asıb-kəsən bir şələ,
Köklü şair idi, Ustad Nəsimi.

Soyduran hakim yoxdu, soyan cəllad da getdi,
Ruh Tanrıya qovuşdu, ağrı, acı da bitdi,
Torpaq ovutdu onu, səsi dünyaya yetdi,
Ünlü şair idi, Ustad Nəsimi.

İlləri yola saldı, əsrlərlə yaşadı
Yaşayacaq, bəşərin yaddaşında var adı.
Bu ili ona verdik, sığmaz, dəniz, dəryadı.
Genli şair idi, Ustad Nəsimi.

Onda əmanət vardı, kainata çatası,
Əqidəsi, məsləki, ruhu onun xətası,
O, dünyanın oğluydu, dünya, şəhid atası.
Dərdli şair idi, Ustad Nəsimi.
Fərqli şair idi, Ustad Nəsimi.

## SONSUZ CƏZA

*Ustad İ.Nəsimiyə*

Bu necə cəzadır, sənə veriblər?!
Dərini soyublar başdan ayağa.
Bu necə cəzadır, sənə veriblər?!
Dərisiz qovuşdun ana torpağa.

Günahın əqidən, günahın ruhun
Səndən günahlılar yedi dünyanı.
Ölüm unutdurdu sənə ağrını
Amma yenə səsin sardı cahanı.

Yüz illər keçibdi, yaran sızlayır
İndi məzarını talan etdilər.
Qayıt Vətəninə, qayıt ay Ustad
Qəbrini döyüşə meydan etdilər.

Sığmırsan cahana hamıya bəlli
Axtar başqa cahan, axtar başqa yer.
Əgər tapa bilsən başqa cahanı
Mənə ayağının, altında yer ver.